11 sentyabr 2022-ci il, bazar XALQ QƏZETİ

# Azərbaycanın uğurlu xarici siyasəti bütün gözləntiləri doğruldur



***Rəşadətli Silahlı Qüvvələrimizin 2020-ci ilin payızında həyata keçirdiyi möhtəşəm "Zəfər yürüşü" sayəsində Qarabağ və Şərqi Zəngəzur düşmən işğalından azad edilib və Azərbaycan dünyada qalib dövlət kimi tanınıb. Bu, həm də diplomatiyamızın qələbəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, cəsarətli addımları Azərbaycanın dünyada mövqelərini daha da möhkəmləndirib. Böyük qələbə yeni reallıqlar doğurub və bizi Cənubi Qafqaz kimi həssas regionda əsas söz sahibi edib.***

Elə avqustun sonunda məlum üçtərəfli 10 noyabr Bəyanatına uyğun olaraq, Azərbaycan tərəfinin Laçında rekord müddətə saldığı alternativ yol hazır olduğu üçün əvvəlki yolun rayon mərkəzindən, eləcə də Zabux və Sus kəndlərindən keçən hissələrinin boşaldılması, Laçın şəhərində də dövlət bayrağımızın ucaldılması məhz suveren hüquqlarımızın qorunmasına yönəlmiş uğurlu xarici diplomatiyanın təntənəsidir.

Azərbaycan siyasətinin mayasını sülhpərvərlik təşkil edir. Bütün danışıqlarda dinc diplomatik meyarlara üstünlük verilir. Amma bu ilin mart ayında erməni hərbi təxribatına cavab olaraq həyata keçirilmiş "Fərrux" əməliyyatı, avqust ayında uğurla sonuclanmış "Qisas" əməliyyatı bir daha göstərdi ki, biz yeri gələndə güc amilindən də bacarıqla istifadə edə bilirik. Diplomatiyada belə bir fikir var: "Masada güclü olmaq istəyirsənsə, sahədə güclü olmalısan". Deməli, güc amili də əsasdır. Bu kontekstdə Prezident İlham Əliyevin "əgər qalan erməni silahlı tör-töküntüləri öz xoşlarına çıxıb getməsələr, növbəti əməliyyatlar daha sərt olacaq" xəbərdarlığı öz gücünə inamın ifadəsidir. Dövlətimizin başçısı atılacaq addımlara irəlicədən elə zəmin yaradır, əks tərəfi elə "tərksilah" edir, beynəlxalq ictimai rəyə elə yön verir ki, daha heç kəs birtərəfli olaraq ermənipərəst mövqe sərgiləyə bilmir.

Siyasi opponentləri, əks qütbləri zərərsizləşdirmə mexanizminin bütün aspektlərini incəliklərinə qədər bilib, reallaşdırmaq məharəti Azərbaycanın diplomatiyasının mükəmməl keyfiyyətlərindəndir. Bunun nəticəsidir ki, istər Avropa İttifaqı (Aİ), istərsə də Rusiya Federasiyası (RF) Ermənistan–Azərbaycan danışıqlarında daha çox bizim haqlı mövqeyimizi dəstəkləyir və sülh prosesini gücləndirmək məramı ifadə edirlər. Aİ-nin də, RF-nin də səyləri Cənubi Qafqazda yaranmış yeni reallıqların hər kəs tərəfindən qəbuluna, nəqliyyat dəhlizlərini açmaqla, sərhədlərin delimitasiya və demarkasiyasını keçirməklə bölgədə möhkəm sülhə nail olunmasına yönəldilib.

Müstəqil Azərbaycanın xarici siyasətdə uğurlarının təməli düz 30 il əvvəl qoyulub. 1992-ci ildə BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycanın bu mötəbər quruma üzv qəbul olunması haqqında qətnamə qəbul edilib və Nyu-Yorkda – BMT-nin iqamətgahı qarşısında Azərbaycanın Dövlət bayrağı qaldırılıb. Ötən dövrdə qurumla əməkdaşlıq Azərbaycanın dünya birliyinə sıx inteqrasiyasını və ölkəmizin beynəlxalq mövqeyini möhkəmləndirməklə yanaşı, həm də Ermənistanın təcavüzkar siyasətini ifşa etməyə geniş imkan yaradıb. 2011-ci il oktyabrın 24-də, müstəqilliyinin 20-ci ilində Azərbaycan Respublikası ilk dəfə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. Həmin səsvermə 17 raunddan ibarət olub və ölkəmiz 155 səs toplayıb, rəqibləri Macarıstan və Sloveniyanı üstələməklə növbəti iki il ərzində Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlük hüququ qazanıb.

Cənab İlham Əliyevin o zaman bu barədə dedikləri qəlbimizi qürurla döyündürüb: "Dünya miqyasında 155 ölkə Azərbaycana inanır, Azərbaycana hörmət edir, Azərbaycana rəğbətlə yanaşır və Azərbaycanı dəstəkləyir. Bu qələbə Azərbaycan xalqının qələbəsidir... Bir daha bütün Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da ölkəmiz uğurla inkişaf edəcək, bundan sonra da qələbələrimizin sayı çox olacaqdır".

Əlbəttə, Azərbaycanın BMT Təhlükəsizlik Şurasında təmsilçiliyi dünyada səsimizin eşidilməsi, beynəlxalq idarəetmədə yaxından iştirakımız baxımından çox faydalı olub. Ölkəmiz bu təşkilatda sadiq olduğu ideallara, sülhə, təhlükəsizliyə, demokratiyaya, ədalətə xidmət nümunəsi göstərib.

Azərbaycanın mötəbər qurumlarla əlaqələri bizi beynəlxalq reytinq cədvəllərində ön sıralara çıxarıb. Dövlət başçımız öz xalqına və kreativ düşüncə tərzinə arxalanaraq, ən çətin problemləri qətiyyətlə, müdrikcəsinə həll edə bilib. Cənab İlham Əliyevin başlıca üstünlüyü bundadır ki, daim fəal siyasət aparır, çağdaş dövlətlərarası münasibətlərin daha səmərəli formalarının tətbiqinə konkret əməli təşəbbüslər göstərir. Buna əyani misal olaraq ölkəmizin beynəlxalq aləmdə ikinci ən böyük təşkilat sayılan, heç bir blokda iştirak etməyən 120 dövlətin üzv olduğu Qoşulmama Hərəkatına (QH) 2019-cu ildən bəri layiqincə sədrlik etdiyini göstərmək olar. 2018-ci ildə Bakıda "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda QH-nin nazirlər konfransı böyük uğurla keçib. Ölkəmiz növbəti ildə Bakıda hərəkatın 18-ci Zirvə görüşünə də layiqincə evsahibliyi edib. Tədbirə BMT üzvü olan 120 dövlətin yüksək səviyyəli təmsilçiləri və 42 beynəlxalq təşkilatın nümayəndələri qatılıblar. QH-yə sədrlik 2019-2022-ci illər üzrə Azərbaycan Respublikasına keçib. Ötən müddətdə ölkəmiz tərəfindən sədrlik çərçivəsində müxtəlif prosessual və təşəbbüskarlıq tədbirləri həyata keçirilib. Azərbayca Prezidenti və QH-nin sədri İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il mayın 4-də üzv ölkələrin COVID-19 pandemiyasına qarşı mübarizə üzrə təmas qrupunun Zirvə görüşü formatında videokonfransı təşkil olunub. Ölkəmiz QH-nin hazırkı sədri qismində hərəkatın koronavirusa qarşı mübarizə üzrə ən yüksək səviyyədə təmas qrupunun yaradılması və qlobal pandemiyanın QH üzv dövlətlərinə təsirinin qiymətləndirilməsi, onların ehtiyaclarının müəyyən olunması təşəbbüsü ilə çıxış edib.

Görüşün yekunu olaraq bəyannamə qəbul edilib və QH-nin COVID-19 pandemiyasına qarşı mübarizə üzrə işçi qrupu yaradılıb. Diqqətçəkən məqam odur ki, cənab İlham Əliyev BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsünü irəli sürüb. BMT Baş katibi bir qədər sonra həmin sessiyanın çağırılacağını elan edib. Nəticədə, 2020-ci ilin 3-4 dekabr tarixlərində sessiyasının yüksək səviyyəli seqmenti təşkil olunub. Həmin tədbirin açılış hissəsində cənab İlham Əliyev humanist xarakterli tarixi çıxış edib.

Ermənistan qoşunlarının ərazilərimizdə növbəti təxribatına cavab olaraq, Azərbaycan əks-hücum əməliyyatlarına başladıqdan sonra və döyüşlərin aktiv fazası zamanı da QH üzvləri həm növbəti sessiyası çərçivəsində ölkəmizlə həmrəylik fikirlərini bəyan edib, həm də BMT Təhlükəsizlik Şurasının qapalı məsləhətləşmələrdə ölkəmizin mövqeyinə zidd olan və münaqişə barədə TŞ qətnamələrinə istinad edilməyən bəyanat layihəsinin qəbulunun qarşısının alınmasına nail olublar. Əlbəttə, bu, Azərbaycan tərəfinin TŞ-də qeyri-daimi üzv olan QH dövlətləri ilə öncədən apardığı səmərəli işin uğurlu nəticəsi idi.

Qoşulmama Hərəkatı tərəfindən ölkəmizə olan etimad davamlı surətdə yüksəlir. Təsadüfi deyil ki, təşkilata üzv dövlətlərin yekdil rəyi ilə Prezident İlham Əliyevə müraciət olunub ki, QH-yə Azərbaycanın sədrliyi 1 il də uzadılsın.

Ölkəmizin digər mötəbər təşkilatlarla da sıx əlaqələri var. Buraya Avropa İttifaqı, NATO, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, iqtisadi birliklər daxildir. Azərbaycan Prezidenti çıxışlarında beynəlxalq təşkilatların regionlarda dinc inkişafa güclü dəstək verə biləcəklərini, konseptual beynəlxalq layihələr təqdim edərək reallaşdırmaq imkanında olduqlarını dönə-dönə nəzərə çatdırıb və bu yöndə şəxsi səylərini genişləndirib.

Siyasi-diplomatik uğurlarda iqtisadi güc də əsas amildir. Ölkəmizin zəngin karbohidrogen ehtiyatları və bundan maksimum səmərəli istifadə edə bilməyimiz sayəsində biz dünyada nüfuz qazanmışıq. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısı rolunda çıxış edir. Neft, qaz, digər təbii sərvətlərimiz Avropa və dünya bazarlarına çatdırılır. Beynəlxalq banklar heç bir risk amili görmədən iqtisadiyyatımızın inkişafına investisiyalar qoyur, Azərbaycanla işbirliyindən lazımınca faydalanırlar.

Super güclərin, iri qonşu dövlətlərin bölgədəki ortaq maraqlarının nəzərə alınması da zəruridir. Burada Prezidenti İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbiri Roberto Boncorniyə müsahibəsində bu barədə dediklərini yada salmaq yerinə düşər:

– Azərbaycan kiçik, lakin müasir dövlətdir və üç güclü regional dövlətin – Sizin güclü müttəfiqiniz olan Türkiyə, Rusiya və İranın əhatəsində yerləşir. Həmişə balansı qoruyub saxlamağa müvəffəq olmusunuz. Lakin son altı ayda vəziyyət köklü şəkildə dəyişib və Siz qazla bağlı Avropaya daha da yaxınlaşırsınız. Siz Rusiya tərəfindən hərbi deyil, kommersiya və diplomatik sahələrdə hər hansı təzyiqlə üzləşirsinizmi?

– Xeyr, qətiyyən yox. Bunun səbəbi odur ki, bizim regiondakı münasibətlərimiz çox yaxşı balanslaşdırılmışdır, onların öz dinamikası var. Bizim hər bir qonşu ilə xüsusi ikitərəfli əməkdaşlıq gündəliyimiz var və bu gündəlik bütün qonşularla fərqlidir. Biz hər bir qonşumuzla ədalətli və səmimi davranırıq, heç vaxt vədimizi pozmuruq. Əgər nəyisə deyiriksə, qonşularımız əmin olurlar ki, biz onu edəcəyik. Bizim sözümüzün imzamız qədər qüvvəsi var. Ona görə də bu çətin vəziyyətdə biz nə Rusiyadan, nə də İrandan mövqeyimizlə bağlı hər hansı mesaj almamışıq. Bizim mövqeyimiz çox sadədir. Biz hər bir dövlətin ərazi bütövlüyünü daim dəstəkləyirik və bu, fundamental mövqedir".

Cənab İlham Əliyevin yürütdüyü alternativsiz siyasətin bir mühüm cəhəti də odur ki, xarici diplomatların, jurnalistlərin, QHT nümayəndələrinin, dost ölkələrdən gəlmiş qonaqların Bakıdan Qarabağa müntəzəm səfərləri təşkil edilir. Ziyarətçilər orada ermənilərin şikəst vandallıq zehniyyətinin izlərini və hazırda aparılan möhtəşəm bərpa-quruculuq tədbirlərini öz gözləri ilə görür, bizim sülhpərvər niyyətlərimizi necə əzmlə reallaşdırdığımıza, necə bir faşizmlə qarşı-qarşıya olduğumuza canlı şahidlik edirlər.

Türkiyədə fəaliyyət göstərən və Azərbaycanda akkreditə olunmuş 60-dan çox ölkənin və 19 beynəlxalq təşkilatın diplomat və hərbi nümayəndələri ötən ayın sonunda Qarabağa yollanıblar. Şuşada yenidənqurma işləri, postmünaqişə dövründə minatəmizləmə və şəhərsalma potensialının istifadə və ümumi beynəlxalq əməkdaşlıq imkanlarına dair beynəlxalq konfrans keçirilib. Lakin ABŞ və Fransa səfirlərinin konfransda iştirak etməyiblər. Bunun şərhində Azərbaycan rəsmiləri böyük cəsarətlə bəyan ediblər ki, bu, Qarabağ probleminin sülh yolu ilə həllində onların elə də maraqlı olmadıqlarının, Azərbaycanın ərazi bütövlüyünə lazımi hörmət etmədiklərinin göstəricisidir.

Azərbaycanın xarici siyasətinin bir uğuru da münaqişənin həlli üçün heç bir şey etməyən və ya etmək istəməyən ATƏT-in Minsk qrupunun faktiki ləğvi və böyük qələbənin sayəsində bu məsələnin artıq qapadılmış mövzuya çevrilməsidir. Qondarma DQR üçün status tələbi də eyni uğurla gündəlikdən çıxarılıb. Qarabağdakı 20-25 minlik etnik ermənilərə gəlincə isə, əgər onların xalqımıza qarşı cinayətlərdə əli olmayıbsa, separatçı deyillərsə, Azərbaycanın bayrağı altından keçməli, dövləti qanunlarımıza itaət etməlidirlər.

Sevindirici haldır ki, Azərbaycan rəhbəri İlham Əliyev öz fəaliyyətində, uğur qazandığı diplomatiya sahəsində zamanın "nəbz"ini düzgün tutmaqla ölkəmizi və xalqımızı yeni və daha böyük zirvələrə ucaldır. Bütün bunların kökündə onun həyata keçirdiyi müstəqil siyasətin dayandığı şübhəsizdir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***